

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 aprel 2024-cü il №24 (2835) https://mod.gov.az Qiymıəti 30 qəpik


## Prezident İlham Əliyev Türkiyə Prezident Administrasiyasının komitə sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib





*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə "ASELSAN" şirkətinin baş direktoru Ahmet Akyol, "ASFAT" şirkətinin baş direktoru Behçet Karataş, "HAVELSAN" şirkətinin baş direktoru Mehmet Akif Nacar, "Maşınqayırma və Kimya Sənayesi" şirkətinin baş direktoru İlhami Keleş, "REPKON Grup" şirkətinin prezidenti İbrahim Külekçi, "ROKETSAN" şirkətinin baş direktoru Murat İkinci, "Müdafiə Texnologiyaları və Mühəndislik" şirkətinin baş direktoru Özgür Güleryüz, "Türkiyənin Aviasiya və Kosmos Sənayesi - TUSAŞ" şirkətinin baş direktoru Temel Kotil daxildir.

(Ardı 2-ci səhifədə)

## Prezident İlham Əliyev 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşılan fotonu təqdim edir.

## Birinci vitse-prezident Mehriban Əliyeva 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC-ın xəbərinə görə, paylaşımda deyilir:

"Soyqırımı qurbanlarının nurlu xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

## Aprel zəfəri - Böyük Qələbəyə aparan yol

Azərbaycan Ordusunun Aprel zəfərindən artıq 8 il ötür. Aprel qələbəsi də hərb tariximizə qızıl hərflərlə yazılmış, qəhrəman oğullarımızın misilsiz şücaəti ilə qazanılmış qələbələrimizdəndir. Azərbaycan əsgəri bu döyüşlərdə böyük hünər göstərərək erməni işğalçılarına ağır zərbələr endirdi. Belə ki, 2016-cı ilin Aprel döyüşləri ilə Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında Şanlı Azərbaycan Ordusu Böyük Qələbəyə aparan yolun cığırını açdı. Aprel qələbəsi xalqımızın gələcək qələbələrə olan inamını daha da artırdı. Əvvəlcə həmin tarixin xronologiyasına nəzər salaq.

Separatçı qüvvələrin 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə təxribat törətmək cəhdi onların fiaskosu ilə nəticələndi. Düşmən tərəfindən cəbhə boyu bölmələrimizin mövqeləri, həmçinin yaşayış məntəqələrimiz müxtəlif çaplı silahlardan və artilleriya qurğularından atəşə məruz qaldı. Bunun nəticəsində dinc sakinlərimiz həlak olmuş və müxtəlif dərəcəli xəsarətlər almış, mülki və hərbi infrastrukturlara, əhalinin təsərrüfat sahələrinə ziyan dəymişdir. Təxribatın qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması üçün Azərbaycan Ordusu tərəfindən cəbhənin müxtəlif istiqamətlərindən təxirəsalınmaz cavab tədbirləri icra olunmuşdur. Ordumuzun bölmələri düşmənin kəşfiyyat-diversiya bölmələrinin hücumlarını dəf edərək, onlara xeyli itki verməklə, geri çəkilməyə məcbur etmişdir. Belə ki, Azərbaycan əsgəri Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində Ermənistan ordusunun yerləşdiyi mövqeləri darmadağın edərək irəlilədi. Azərbaycan əsgəri sərgilədiyi misilsiz Vətən sevgisi ilə əldə etdiyi qələbədən sonra düşmənin məğlubedilməzlik mifi darmadağın olundu, keçilməz sədləri qısa vaxtda yarıldı. Başqa cür ola da bilməzdi, düşmən məğlub olmalı idi, çünki o işğalçı idi və sonda ədaləti bərpa edən də məhz o torpağın həqiqi sakinləri olan qəhrəman oğullarımız idi. Separatçılar bu döyüşlərdə yüzlərlə itki verdi, düşmənin onlarla texnikası və döyüş qurğuları sıradan çıxarıldı. Düşmənin yerləşdiyi strateji yüksəkliklər bölmələrimiz tərəfindən azad olundu. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və digər işğalda olan 2000 hektardan çox ərazi düşməndən təmizləndi. Düşmənin nəzarətində olan strateji yüksəkliklərin azad olunması Goranboy, Naftalan, Füzuli, Tərtər şəhərlərinin tərkibində olan ərazi inzibati vahidlərinin hərbi və mülki infrastrukturuna yarana biləcək təhlükələri də aradan qaldırdı. Məhz Aprel döyüşlərində strateji yüksəkliklərin düşməndən təmizlənməsindən sonra "Böyük Qayıdış" prosesinin də təməli qoyuldu. Mülki əhaliyə qarşı təhlükənin aradan qaldırılmasından sonra Cocuq Mərcanlıda əhalinin firavan həyatı üçün kompleks tədbirlər icra olundu. Soydaşlarımız uzun illər sürən həsrətdən sonra öz doğma yurdlarına qayıtdılar və bununla da o yerlərdə həyat yenidən canlandı.

2016-cı ildə qazanılan Aprel qələbəsi Azərbaycan Ordusunun gələcək zəfərlərinin carçısı oldu. O gündən bu günə qədər təməli öz iqtisadiyyatımıza söykənən hərb sahəmizin inkişaf etdirilməsinə və qüdrətlənməsinə yönəlik görülən işləri də xüsusi vurğulamaq lazımdır. Belə ki, ordunun şəxsi heyəti həm ölkə daxilində, həm də ölkə hüdudlarından kənarda keçirilən müxtəlif miqyaslı təlim və məşqlərdə öz peşəkarlığını daha da artırdı. Bu təlimlərdə hərbi qulluqçularımız xeyli tər tökdü, döyüş hazırlıqlarını və vərdişlərini təkmilləşdirdilər. Döyüşdə qələbəni də şərtləndirən amil məhz döyüş ruhu və döyüş vərdişidir ki, Azərbaycan əsgəri son illər ərzində qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla və ləyaqətlə gəlməyi bacardı. Qalib ordumuz gündən-günə güclənirdi. Və bu qüdrət dosta dayaq, düşmənə gözdağı idi. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, döyüş hazırlığının artırılması, maddi-texniki təminatımızın müasir standartlar çərçivəsində qurulması və hərbi qulluqçuların sosial rifahının yaxşılaşdırılmasına yönəlik görülən işlər sayəsində sonda uzun illər bərpa olunmayan ədalətin məhz öz gücümüzə, hərb gücünə bərqərar olması ilə nəticələndi. 2016-cı ilin aprelində əldə olunan şanlı qələbə dövlətimizin, xalqımızın, ordumuzun bütövlüyünün və vəhdətinin növbəti simvolu, gələcək uğurlara açılan qapının açarı oldu. Məlumdur ki, düşmən bu uğursuzluqlardan nəticə çıxarsaydı, gələcəkdə daha böyük iflaslar yaşamayacaqdı. Çünki Azərbaycan xalqının işğalla heç vaxt barışmayacağını və ərazi bütövlüyünü nə vəchlə olursa-olsun, təmin edəcəyini dövlət başçımız dəfələrlə vurğulamışdı ki, düşmən bu fikirdən dərs çıxartmalı idi.

(Ardı 6-cı səhifədə)

# Prezident İlham Əliyev Türkiyə Prezident Administrasiyasının komitə sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib






(Əvvəli 1-ci səhifədə)

Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən hərbi və müdafiə sənayesi sahəsində uğurla inkişaf etdiyi qeyd olundu, Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişlənməsi işinə töhfə verəcəyi vurğulandı.

Prezident İlham Əliyev Türkiyə hərbi sənaye kompleksinin məhsullarının keyfiyyət və səmərəliliyə görə artıq dünya səviyyəsində məşhurlaşdığını məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı, eyni zamanda, Azərbaycanda müdafiə sənayesinin inkişafi ilə bağlı ciddi addımların atıldığını vurğuladı və bu baxımdan Türkiyənin aparıcı şirkətlərindən ibarət nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını dedi.

Qəbula görə minnətdarlığını bildirən Haluk Görgün böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etməklərindən məmnunluq duyduqlarını vurğuladı və Türkiyə müdafiə sənayesinin əsasını təşkil edən nüfuzlu şirkətlərin rəhbərlərinin burada təmsil olunduqlarını bildirdi. Haluk Görgün səfər çərçivəsində Türkiyə nümayəndə heyətinin tərkibində olan şirkətlər ilə Azərbaycan müdafiə sənayesi şirkətləri arasında bir neçə istiqamətdə birgə fəaliyyətlə bağlı anlaşma memorandumlarının imzalanması barədə dövlətimizin başçısına məlumat verdi.

Türkiyənin Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Ramazan ayı münasibətilə təbriklərini və bu müqəddəs ayın Azərbaycan üçün xeyirli və bərəkətli olması ilə bağlı arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev xoş sözlərə minnətdarlığını bildirdi.

Haluk Görgün Azərbaycanın Vətən müharibəsində əldə etdiyi inamlı Zəfəri vurğulayaraq İlham Əliyevin prezident seçkilərində qalib gəlməsini bir-birinin ardınca qazanılan qələbə hadisələri kimi qiymətləndirdi. O, Prezident seçkilərindən sonra dövlətimizin başçısının bu ilin fevralında Türkiyəyə rəsmi səfərinin əlaqələrimizin inkişafında rolunu qeyd etdi.

Sonda Azərbaycan Prezidentinə xatirə hədiyyəsi təqdim olundu.

# Azərbaycanın müdafiə naziri Türkiyə Prezident Administrasiyasının komitə sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri cənab Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqları salamlayan general-polkovnik Zakir Həsənov onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib, bu cür görüşlərin qarşılıqlı əməkdaşlığımızın genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Müdafiə naziri Azərbaycan ilə Türkiyə arasında həyata keçirilən birgə istehsalat layihələrinin iki qardaş ölkənin ordularının müdafiə qüdrətini daha da artıracağına əminliyini ifadə edib.

Cənab H.Görgün öz növbəsində göstərilən qonaqpərvərliyə görə general-polkovnik Zakir Həsənova minnətdarlığını bildirib, dövlət başçılarımızın səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyini vurğulayıb.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında mövcud olan ikitərəfli hərbi əməkdaşlığın hazırkı vəziyyətindən məmnunluq ifadə olunub, dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əlaqələrin qarşılıqlı inam, etimad və dəstəyə əsaslandığı qeyd edilib.



Türkiyə Respublikasının Azərbaycandakı səfiri cənab Cahit Bağçının və bu ölkənin aparıcı hərbi sənayə şirkətlərinin rəhbərlərinin də iştirak etdiyi görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib, qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Ermənistanın şərti sərhəddə qoşun cəmləməsi İrəvanın təxribatçılıq niyyətindən xəbər verir

"Ermənistanın Azərbaycanla şərti sərhəddə canlı qüvvə və hərbi texnika cəmləməsi açıq-aşkar İrəvanın təxribatçılıq niyyətindən xəbər verir".

Bunu AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini polkovnik Cəlil Xəlilov bildirib. Polkovnik qeyd edib ki, Ermənistan hakimiyyətinin belə təxribatlarla bəzi məqsədlərə çatmağa çalışdığı şübhəsizdir: "Ermənistanın Vətən müharibəsindən sonra da ölkəmizə qarşı həm hərbi, həm də siyasi-informasiya müstəvisində təxribatları davam etdirdiyi hər kəsə məlumdur. Bu da məlumdur ki, Ermənistan və onun havadarları belə təxribatlarla sülh sazişinin imzalanmasını əngəlləməyə, regionda yeni bir gərginlik yaratmağa çalışırlar.

Ölkəmizə qarşı təxribatlarda digər bir məqsəd isə Azərbaycanı hərbi müstəvidə konkret addımlar atmağa, cavab tədbirləri görməyə sövq etmək, bununla da ölkəmizin aqressiv dövlət obrazını formalaşdırmaqdır. Bu işdə Ermənistan qədər onun xaricdəki himayədarları da maraqlıdırlar.

Artıq mümkün təxribatlarla bağlı Azərbaycan Respublikasının Müdafiə Nazirliyi rəsmi açıqlamalar verib, habelə düşmənin şərti sərhəddə möhkəmlənmək cəhdlərinin əks olunduğu görüntüləri paylaşıb. Bütün bu faktlar aydın şəkildə Ermənistanın təxribat hazırlığında olduğunu göstərir. Bu faktlar bir daha sübut edir ki, rəsmi İrəvan sülh haqqında deyil, yeni qarşıdurmalar haqqında düşünür. Aprelin 1-də Naxçıvan istiqamətində mövqelərimizin Ermənistan ordusu tərəfindən atəşə tutulması planlaşdırılan təxribatların tərkib hissəsidir. Bu ölkənin ordusunun şərti dövlət sərhədlərində cəmləşdirildiyini nəzərə alsaq, bu kimi təxribatların yaxın günlərdə təkrarlanacağı istisna deyil.

Müdafiə Nazirliyinin də bəyan etdiyi kimi, bölgədə baş verə biləcək mümkün insidentlərə görə məsuliyyət birmənalı şəkildə Ermənistan və onun himayədarlarının üzərinə düşəcək.

Azərbaycan dövləti, onun Silahlı Qüvvələri xalqımızın və dövlətimizin təhlükəsizliyini təmin etməyə, ərazi bütövlüyümüzə, suverenliyimizə yönəlmiş hər cür təhlükənin qarşısını almağa qadirdir. Əgər Ermənistan ölkəmizə qarşı hər hansı təxribata əl atarsa, o zaman bu təxribatın qarşısını bir neçə misli ilə alacaq".

# General-polkovnik Zakir Həsənov: "Hərbi hissələrdə keçirilən təlimlərin və praktiki məşqlərin intensivliyi daha da artırılsın"

*Martın 30-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.*



Nazir müavinləri, qoşun (qüvvə) növləri komandanları, nazirliyin baş idarə və idarə rəisləri, eləcə də hərbi hissə komandirlərinin bilavasitə və videobağlantı vasitəsilə iştirak etdiyi müşavirədə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların, həmçinin 31 mart soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdıran müdafiə naziri Azərbaycan Respublikasının Prezidentinin martın 18-də Xankəndi şəhərində Novruz bayramı münasibətilə xalqımızı təbrik edərkən İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı zamanı ordumuzun döyüş qabiliyyəti ilə bağlı səsləndirdiyi fikirlərin Azərbaycan Ordusuna verilən yüksək dəyərin göstəricisi olduğunu qeyd edib.

Müşavirədə Azərbaycan-Ermənistan şərti sərhədindəki mövcud əməliyyat şəraiti təhlil edilib, hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi barədə vəzifəli şəxslər qarşısında tapşırıqlar qoyulub.

General-polkovnik Zakir Həsənov silahlanmaya yeni qəbul edilmiş müasir silah, texnika və digər döyüş vasitələrinin tətbiqi ilə real döyüş şəraitinə uyğun keçirilən təlimlərin və praktiki məşqlərin intensivliyinin daha da artırılmasının vacibliyini vurğulayıb.

Müdafiə naziri şəxsi heyətin sağlamlığının qorunmasının daim diqqət mərkəzində saxlanılması, xüsusilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2024-cü ilin aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə yeni çağırılacaq gənc əsgərlərin fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, onların adaptasiya prosesinə həssaslıqla yanaşılması və xidmət müddətini başa vurmuş hərbi qulluqçuların planlı şəkildə yola salınması ilə bağlı müvafiq göstərişlər verib.

Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğı və problemlərinin həlli istiqamətində görülən işlərin davam etdirildiyi qeyd olunub. Bunun bariz nümunəsi olaraq dövlətimizin başçısının 28 dekabr 2011-ci il tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Fərmanının icrasının təmin edilməsi məqsədilə 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara daimi mənzillərin verilməsinin hərbi qulluqçularda böyük ruh yüksəkliyi yaratdığı xüsusi vurğulanıb.

Gündəlik xidməti fəaliyyətdə təhlükəsizlik qaydalarının şəxsi heyətə mütəmadi olaraq çatdırılması və bu qaydalara onlar tərəfindən əməl olunmasına ciddi nəzarət edilməsinin, eləcə də silah, döyüş və xüsusi texnikanın istismarı zamanı iqlim şəraitinin xüsusiyyətlərinə diqqət yetirilməsinin vacibliyi qeyd olunub.

Müdafiə naziri qoşun xidməti və ideoloji işin yüksək səviyyədə təşkilinə, hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılmasına, həmçinin mühəndis və tibbi təminat üzrə həyata keçirilən zəruri tədbirlərə xüsusi diqqət yetirilməsi ilə bağlı vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

Sonda general-polkovnik Zakir Həsənov 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar anım və maarifləndirici tədbirlərin keçirilməsi barədə göstərişlər verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatı

Son zamanlar Ermənistan-Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsi, zirehli texnikası, artilleriya qurğuları, habelə digər ağır atəş vasitələrinin cəmləşdirilməsi və qoşunların intensiv hərəkəti müşahidə olunur.

Son vaxtlar Ermənistanda Azərbaycanı müharibə ilə hədələyən revanşist qüvvələrin daha da fəallaşması, ölkəmizə qarşı aqressiv ritorikanın yüksək həddə çatması və təxribat cəhdlərinə hazırlıq məqsədilə informasiya məkanında vəziyyətin gərginləşməsinə xidmət edən təhrikçi məlumatların sayının artması özünü büruzə verir.

Xəbərdarlıq edirik ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı hər hansı hərbi təxribat cəhdi olarsa, onun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaqdır.

Bir daha bəyan edirik ki, vəziyyətin gərginləşməsinə və baş verə biləcək hər hansı təxribata görə bütün məsuliyyət tamamilə Ermənistan və onun havadarlarının üzərinə düşəcəkdir.

## Ombudsman Aparatının nümayəndələri HHQ-nin hərbi hissəsində olublar

2024-cü il üçün birgə tədbirlər planına əsasən, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının nümayəndələri Hərbi Hava Qüvvələrinin (HHQ) "N" hərbi hissəsində olublar.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissənin ərazisindəki əsgər yataqxanası, yeməkxana, anbar və digər obyektlərə baxış keçirən nümayəndə heyəti burada şəxsi heyət üçün yaradılan şəraitlə tanış olublar. Həmçinin qonaqlar tibb məntəqəsində tibb xidmətinin təşkili ilə maraqlanıblar.



Sonra aparatın nümayəndələri hərbi qulluqçularla görüşüb, onların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi və digər mövzularda mühazirələrlə çıxış ediblər.

Sonda şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.

## Antiterror əməliyyatının ilkin mərhələsində Ermənistana məxsus 200-dən artıq optik-elektron və müşahidə kameraları sıradan çıxarılmışdır









Azərbaycan Ordusu tərəfindən Qarabağ bölgəsində həyata keçirilən antiterror əməliyyatının ilkin mərhələsində Ermənistan silahlı qüvvələrinin səngər, atəş mövqeyi və dayaq məntəqələrində, eləcə də daimi dislokasiya yerlərində əvvəlcədən yerləri müəyyən edilmiş izləmə-müşahidə vasitələri legitim hərbi hədəf olaraq sıradan çıxarılmışdır.

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinə məxsus 200-dən artıq optik-elektron və müşahidə kameraları bölmələrimizin və mülki sakinlərimizin hərəkətini izləmək, onlara qarşı müxtəlif xarakterli təxribat fəaliyyətləri həyata keçirmək məqsədilə kustar üsulla hazırlanaraq 480 kilometrədək təmas xətti boyunca 10-15 və 20-30 metr hündürlükdə quraşdırılmışdı.

Qarabağ iqtisadi rayonunda kəşfiyyat vasitələrimiz tərəfindən müəyyən edilmiş Ermənistan silahlı qüvvələrinə məxsus optik-elektron və müşahidə kameraları ordumuzun arsenalında olan yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılmışdır.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Ermənistan silahlı qüvvələrinə məxsus artilleriya qurğuları aşkar edilib

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən antiterror əməliyyatından sonra Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinə məxsus döyüş texnikası, silah və sursatın aşkar edilərək ərazidən təxliyə edilməsi üzrə tədbirlər davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Kəlbəcər rayonunun Vəng və Ağdərə rayonunun Vəngli yaşayış məntəqələri ərazilərinə baxış zamanı düşmənə məxsus tərk edilmiş atəş mövqelərində 8 ədəd KS-19 zenit topu aşkar edilib.

Döyüş texnikası təhlükəsizlik qaydalarına riayət olunmaqla toplama məntəqəsinə daşınıb.



# Şəhidlik ən uca zirvədir



*İkinci Şəhidlər xiyabanında Azərbaycanın Milli Qəhrəmanı, İkinci Qarabağ müharibəsi şəhidi polkovnik Şükür Həmidovun doğum günü münasibətilə anım mərasimi keçirildi.*

Mərasimdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, Qubadlı rayon İcra Hakimiyyətinin və Qubadlı rayon Mədəniyyət Evinin əməkdaşları, Milli Qəhrəmanın ailə üzvləri, döyüş yoldaşları, məktəblilər və digər qonaqlar iştirak edirdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni ifa olundu.

Daha sonra mərasim iştirakçıları şəhid zabitin məzarını ziyarət edərək, önünə əklil və gül dəstələri qoydular, ruhuna dualar oxudular.

Anım mərasimində qəhrəmanımızın şərəfli həyat yolundan, vətənpərvər zabit kimi Azərbaycan Ordusunda qüsursuz xidmətindən, xüsusilə də Aprel döyüşləri və Vətən müharibəsi zamanı keçdiyi döyüş yolundan danışıldı.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi polkovnik Elşad Əbilov çıxış edərək şəhid ilə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşdü. "Polkovnik Şükür Həmidov həm xidmət, həm də 44 günlük Vətən müharibəsi zamanı silah yoldaşım olub. O, yüksək vətənpərvərlik, mərdlik, şücaət və liderlik qabiliyyətlərinə sahib zabit idi. Vətənimizin şanlı Zəfər tarixi olan Aprel döyüşləri və 44 günlük haqq savaşımızın iştirakçısıdır. Şükür Həmidov və onun simasında hər bir şəhidimiz Azərbaycan hərb tarixinə adını qızıl hərflərlə yazmış, arxasında bizə və gələcək nəsillərə örnək olan hekayə buraxmışdır. Onlar gələcək nəsillər üçün bir hərbçi, zabit nümunəsi olacaqlar. Azərbaycan xalqı Vətən torpaqlarının azadlığı uğrunda döyüşən, şəhidlik zirvəsinə ucalan soydaşlarını hər zaman qəlbində yaşadacaq".





Polkovnik Şükür Həmidov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Azərbaycanın Milli Qəhrəmanı" adı, "Zəfər" ordeni, Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Daha sonra mərasimdə çıxış üçün söz Qubadlı rayonu İcra Hakimiyyətinin başçısının müavini Allahverdi Haqverdiyevə, Yeni Azərbaycan Partiyasının Qubadlı rayon təşkilat üzrə sədri Təhmasib Rüstəmova, Qubadlı rayon Şükür Həmidov adına Xanlıq kənd 3 saylı tam orta məktəbin direktoru Xürrəm Həsənova və digərlərinə verildi. Çıxışlar zamanı natiqlər şəhid zabit ilə bağlı xatirələrini bölüşdü, Milli Qəhrəmanın timsalında bütün şəhidlərimizin xatirəsinin daim əziz tutulduğunu vurğuladılar.

Şəhidin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Sonda Qubadlı rayon Şükür Həmidov adına Xanlıq kənd 3 saylı tam orta məktəbin şagirdləri və Qubadlı rayon Mədəniyyət Evinin bədii-qiraət dərnəyinin üzvləri tərəfindən şəhidlərimizə həsr olunan şeirlər səsləndirildi. Dərnəyin üzvü Mətləb Nuriyev şair Qalib Nuri Arifin "Ey Şəhid, haqqını halal et bizə!" şeiri hər kəsin böyük marağına səbəb oldu.

Ey Şəhid! Ölümə qalib gələrək,
Döndün ölməzliklə əbədiyyətə.
Qəhrəman ruhuna
salam verərək,
Hər gün doğulursan
sən bu millətə!

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"AzərbaycanOrdusu"**

# Milli Qəhrəman Anatoliy Davidoviçin xatirəsi anılıb



Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Belarus Respublikasındakı hərbi attaşelik aparatının nümayəndələri Azərbaycanın Milli Qəhrəmanı, Belarus əsilli Davidoviç Anatoliy Nikolayeviçin anadan olmasının ildönümü ilə əlaqədar onun məzarını ziyarət edib, önünə Müdafiə Nazirliyi adından gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Həmçinin attaşelik aparatının nümayəndələri Milli Qəhrəmanın anası Kima Davidoviçin səhhəti və qayğıları ilə yaxından maraqlanıblar.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Milli Qəhrəmanın anası övladının xatirəsinə olan ehtirama, eləcə də göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Qeyd edək ki, A.Davidoviç Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə ağır yaralanaraq hospitala təxliyə olunub, lakin həkimlərin səyinə baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb, o 1992-ci il iyunun 13-də şəhid olub. Azərbaycan Respublikası Prezidentinin 3 iyul 1992-ci il tarixli Fərmanı ilə mayor Davidoviç Anatoliy Nikolayeviçə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

# Milli Qəhrəmanın doğum gününə həsr olunmuş anım tədbiri keçirildi

İkinci Fəxri xiyabanda Azərbaycanın Milli Qəhrəmanı şəhid polkovnik-leytenant Murad Mirzəyevin unudulmaz xatirəsinə həsr olunmuş tədbir keçirildi.

Tarixi və əzəli yurd yerlərimizin Ermənistan hərbi birləşmələrinin işğalından azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksələn Murad Mirzəyevin doğum günü münasibətilə keçirilən tədbirdə qəhrəmanın ailə üzvləri, Müdafiə Nazirliyinin hərbi qulluqçuları, Yasamal rayonunun İcra Hakimiyyəti başçısı və aparatın məsul işçiləri, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə onunla bir yerdə təhsil alan kursant yoldaşları, komandiri olduğu "N" hərbi hissəsinin şəxsi heyəti, Sabirabad rayonunun idman klubunu təmsil edən yeniyetmələr, vaxtilə təhsil aldığı Muğangəncəli kənd orta məktəbinin rəhbərliyi və ictimaiyyətin nümayəndələri iştirak etdilər.

Tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi dərin hörmət və ehtiramla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.



Milli Qəhrəmanın məzarı önünə əklillər qoyuldu, tər qərənfillər düzüldü, xatirəsi dərin duyğularla anıldı.

Anım tədbirində çıxış edənlər minnətdarlıq hissi ilə şəhid qəhrəmanın nəsillərə nümunə olan şərəfli ömür və şanlı döyüş yolundan söz açdılar. "Xalqımızın qəhrəman oğlu Murad Mirzəyev yaşasaydı, 48 yaşını qeyd edəcəkdik. Amma o, öz şərəfli ömrünü Vətən torpağının azadlığı yolunda qurban verdi. Vətən yaşasın deyə ölümə getdi. Peşəkarlığı və vətənsevərliyi ilə əbədiyaşar və əfsanələşən döyüşçü ömrü qazandı.

Murad Mirzəyev ensiklopedik biliyə malik hərbçi idi. İngilis, rus, türk dillərini mükəmməl bilirdi. O, C.Naxçıvanski adına Hərbi Liseyi bitirdikdən sonra Türkiyə Respublikasında Kara Harp Okulunda ali hərbi təhsil aldı. Amerika Birləşmiş Ştatlarında, Rumıniyada və İordaniyada keçirilən hərbi təlimlərdə fəal iştirak etdi. 2016-cı ildə Aprel döyüşləri zamanı ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Onun zabit peşəkarlığı, vətənsevərliyi barədə ordumuzun şəxsi heyətinə daima nümunə olaraq danışılacaq".

Azərbaycanın Milli Qəhrəmanı polkovnik-leytenant Murad Telman oğlu Mirzəyevin işıqlı xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

**Mətanət İMAMQULİYEVA**
**Cəmşid Naxçıvanski adına**
**Hərbi Liseyin müəllimi**

# 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar silsilə anım tədbirləri keçirilib




*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil müəssisələrində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar silsilə anım tədbirləri keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimlərdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də soyqırımı qurbanlarının xatirələri bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Qeyd olunub ki, 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, həmçinin Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri tərəfindən azərbaycanlılar kütləvi şəkildə vəhşicəsinə qətlə yetirilib.

Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Fərmanı ilə hər il martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində qeyd olunur.

Həmçinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, eləcə də Heydər Əliyev Fondunun ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı dəhşətlərinin dünyaya tanıdılması istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlərin əhəmiyyəti xüsusi vurğulanıb.

Anım tədbirlərində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin hazırladığı ədəbi-bədii kompozisiyalar təqdim olunub, fotosərgilər, sənədli filmlər nümayiş etdirilib, ictimai-siyasi hazırlıq dərslərində mövzuya dair mühazirələr oxunub.

Hərbi qulluqçular tərəfindən soyqırımı qurbanlarının abidələri, eləcə də torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının məzarları ziyarət olunub.

* * *

Xalqımız əsrlər boyu yadelli işğalçılara qarşı vuruşaraq dövlətimizi, dövlətçilik ənənələrimizi yaşadaraq günümüzə qədər gətirib çıxarmışdı. Zaman-zaman qədim Azərbaycanın ərazisinə köç edən ermənilər burada məskunlaşaraq özlərinə dövlət qurmağa da nail olmuşdular. Söz yox ki, bu ermənilərin hünəri deyildi, onlara dəstək verən güclü dövlətlərin, imperiyaların sayəsində mümkün olmuşdu. Havadarlardan güc alan ermənilər ötən əsrin əvvəllərində xalqımıza qarşı soyqırımlar həyata keçirməyə başladılar. Şaumyanın, Lolayanın rəhbərlik etdiyi silahlı quldur dəstələrinin bir məqsədi vardı; qarşısına çıxan hər bir azərbaycanlını yaşından, cinsindən asılı olmayaraq amansızlıqla qətlə yetirmək.



31 mart 1918-ci ildə Azərbaycanın bütün bölgələrində - Bakıda, Şamaxıda, Qarabağda, Gəncədə, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Qubada, Lənkəranda və başqa şəhər və kəndlərdə təpədən-dırnağadək silahlanmış erməni daşnaklar azərbaycanlıları amansız işgəncələrlə qətlə yetirmişdilər. Azərbaycan xalqına qarşı törədilmiş soyqırımdan 106 il ötür. Uzun illər Azərbaycanın doğru, dürüst tarixini öyrənmək mümkün olmasa da, əbədi müstəqillikdən sonra arxiv materialları əsasında əsl həqiqətlər üzə çıxmış və xalqımızın başına müsibətlər açmış imperialist qüvvələrin məqsədi bəlli olmuş, yaşanılan tarix olduğu kimi xalqa çatdırılmışdı.

31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin təşkilatçılığı ilə Heydər Əliyev adına Hərbi İnstitutda "Qan yaddaşımız" adlı tədbir keçirildi. Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə tədbir açıq elan olundu.

Tədbirin keçirildiyi klubda səhnəyə soyqırımı əks etdirən qırmızı qərənfillər, şamlar düzmüşdülər. Aparıcı baş leytenant Elçin Salmanov əvvəlcə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı danışaraq dedi: - 1918-ci il 30 mart tarixində axşam saat 05:00-da ilk dəfə Bakıda atəş səsləri eşidilib. Əvvəlcədən planlaşdırılmış şəkildə təkcə erməni əsgərləri deyil, Bakıdakı ermənipərəst qüvvələr də bu savaşa qoşulmuşdular. Azərbaycanlılara qarşı aparılan soyqırımı siyasətinin xronologiyasını xatırlayarkən, xalqımıza münasibətdə törədilən vəhşilik və cinayətlərin miqyası heyrət və qəzəb doğurmaya bilmir. 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 50 min azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı doğma yurd-yuvalarından didərgin salmışdılar. Şamaxıda 58, Quba ərazisində 122, Qarabağın Dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan Quberniyasında 211, kənd yerləyeksan olunmuşdu. Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu haraya çatmasaydı, bu qırğının miqyası daha geniş olacaqdı. Daşnak quldur dəstələrinə qarşı vuruşlarda 5 min azərbaycanlı və min nəfərədək türk əsgəri həlak olmuşdur.



Tədbirdə həmin dövrü əhatə edən döyüş səhnələrini əks etdirən tədqiqatçı alimlərin araşdırdıqları faktlar əsasında hazırlanmış sənədli flim təqdim edildi. Quba rayonunda aşkar edilmiş kütləvi məzarlığın da həmin dövrə aid olduğu məlum olmuşdur.




1990-cı illərin əvvəllərində Azərbaycanın ərazi bütövlüyünə qarşı başlanmış Qarabağ müharibəsi də ermənilərin əsrin əvvəllərində azərbaycanlılara qarşı törətmiş olduğu soyqırımın davamı olmuşdu. Ermənilər Azərbaycan torpaqlarının 20 faizinin otuz ilə yaxın işğal altında saxlanmasına nail olsalar da, sonda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu 44 gün ərzində düşmən ordusunu darmadağın edərək tarixi torpaqları azad etdi. Bu tarixi qələbəmiz həm də tarixi ədalətin bərpası idi.

Tədbirdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında vətənpərvərlik mahnıları səsləndirildi, milli rəqslər və əsgərlərimizin döyüş səhnələri tərənnüm edildi.

**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

Azərbaycanlıların soyqırımı dedikdə daha çox 1918-ci ilin martında Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Kürdəmirdə, Salyanda, Lənkəranda və digər bölgələrdə erməni hərbi qüvvələrinin törətdikləri qırğınlar nəzərdə tutulur. 1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə bolşevik və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımı nəticəsində rəsmi mənbələrə əsasən on minlərlə soydaşımız məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirildi, yaşayış məntəqələri, tarixi abidələr, məscid və qəbiristanlıqlar viran edildi.

31 Mart - Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "N" hərbi hissəsində şəxsi heyətin iştirakı ilə tədbir keçirildi.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin və soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti Elçin Salmanov çıxış edərək ötən əsrin əvvəllərində bolşevik-erməni silahlı qruplaşmalarının Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi etnik təmizləmə və deportasiya siyasəti nəticəsində bir çox bölgələrdə minlərlə günahsız soydaşımızın qətlə yetirildiyini vurğuladı. Zabit bildirdi ki, bu qanlı soyqırıma Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra siyasi qiymət verilib. Belə ki, 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Bu Fərman tariximizin qanlı səhifələrinin öyrənilməsi və əbədiləşdirilməsi ilə yanaşı, həm də erməni şovinizminin, terrorizminin ifşası baxımından mühüm əhəmiyyət kəsb edir.

Sonra erməni bolşeviklərinin törətdiyi qətliamı əks etdirən videoçarx tədbir iştirakçılarına təqdim olundu.

Videoçarxda 106 il əvvəl mənfur ermənilərin Azərbaycan xalqına, xüsusilə dinc insanlara - qadın, uşaq və yaşlılara qarşı törətdikləri vəhşiliklər nümayiş edildi. Bakı, Quba, Şamaxı, Xaçmaz, Lənkəran, Zəngəzur, Qarabağ və digər bölgələrdə erməni silahlı dəstələri tərəfindən minlərlə azərbaycanlının amansızlıqla qətlə yetirilməsi göstərildi.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərliyi tərənnüm edən musiqilər ifa edildi.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

# "Qələbə!" sözü, Vətən müharibəsi və "Qələbə uğrunda"

***Ermənistan işğalçı dövlət kimi Azərbaycanın ərazilərində ədalətsiz müharibə aparırdı. Yeni yaradılan, formalaşan ordumuz havadarlarının həm siyasi, həm də hərbi dəstəyindən bəhrələnən Ermənistan ordusu ilə qətiyyətlə döyüşürdü. Düşmənin həmlələrinin, hücumlarının qarşısını yerli müdafiə batalyonları, əhali, polis işçiləri alırdılar. Ədalətsiz müharibə müharibə qanunlarına uyğun aparılmadığına görə Azərbaycanın neçə kəndində faciələr törədilmişdi, Qarakənd kəndi üzərində sakinləri dövlət məmurları və yüksək vəzifəli xarici qonaq olan vertolyotu da vurmuşdu. Dünya dövlətləri də, beynəlxalq təşkilatlar da bunların heç birinə görə Ermənistanı ciddi şəkildə qınamadı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qətiyyətlə bildirmişdi ki, Azərbaycan xalqı, Azərbaycan dövləti Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək. Bu ciddi qətiyyət Ermənistanı da, onun havadarlarını da ciddi düşündürməli idi. Ancaq Ermənistan yeni təxribatlarla yeni ərazilər işğal etmək istəyirdi.***

"Azərbaycan Ordusu" qəzeti müharibəyə qədər də, müharibədə də əsgərlərin döyüş əzminin, qələbə ruhunun söz qardaşı idi. Dərc edilən məqalələr, reportajlar bu niyyəti ifadə edirdi. Ön xətdə, səngərlərdə əsgərlərin düşüncələrində bir istək olardı: Ali Baş Komandan döyüş əmri versin. Qələbə qazanacağıq, torpaqlarımızı işğaldan azad edəcəyik. Əsgərlər Qələbə sözünü Azərbaycana sevgi kimi, Hərbi Anda sədaqət kimi deyirdi. Onda duyurduq ki, əsgərləri həm də bu söz birləşdirir, bu söz müsəlləhləşdirib. Məqalələrimiz həm də duyduğumuz bu məqamın sözünə dönürdü. Səngərlərdə ən çox eşitdiyimiz üç söz olardı: Vətən, döyüş, Qələbə. Səngərdə əsgərlərdən eşitdiyim bir fikri onların mənəvi-psixoloji hazırlığının səviyyəsinin göstəricisi bilmişdim: Biz Qələbənin əsgəri olmaq istəyirik! Obrazlı şəkildə desək, Vətən müharibəsinə qədər səngərlərdə dan yeri Qələbə niyyəti ilə sökülürdü...

Gədəbəydə xidmət edən əsgərlərdən biri Ə.Əzimzadə adına rəssamlıq məktəbini bitirmişdi. İstedadlı rəssam olacaqdı. Xidməti başa çatanda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmaq istədiyini bildirmişdi: Qələbəyə kimi xidmət etmək istəyirəm. Rəssamlıqla Qələbədən sonra məşğul olaram. Qələbə qazanmış əsgərlərimizin portretlərini çəkəcəm, Qələbəni necə qazandıqlarını çəkəcəm...

Əsgərin dedikləri səngərin göylərinə yayılmışdı...

"Qələbə" sözü 2020-ci ilin payızına kimi səngərlərdə, döyüş növbətçiliyində səslənirdi, 2020-ci il sentyabrın 27-də isə düşmənin hücumunu dəf edəndə, əks-hücuma keçəndə səslənirdi.

İkinci Qarabağ müharibəsi başlayanda "Azərbaycan Ordusu" qəzetinin əməkdaşlarının bir qrupu da döyüşlərə göndərildi. Döyüşə yox, döyüşənlərin döyüşlərini döyüşün içində tarixləşdirməyə. Üç istiqamət müəyyənləşdirilmişdi. Hər istiqamətdə bir döyüş vərəqəsi nəşr olunacaqdı. Mənə və hərbi xidmət yoldaşım baş leytenant Mahmud Möhbalıyevə "Qələbə uğrunda"nı hazırlamaq tapşırılmışdı. Buna döyüş vərəqi də demək olardı, ancaq biz onu döyüş qəzeti adlandırırdıq və bu adlanma səviyyəsində də hazırlayırdıq. Qəzetçiliyin bütün tələbləri nəzərə alınmaqla hazırlayır, nəşr edirdik - səhra mətbəəsi formatında. Operativlik də vardı, dəqiqlik də. Döyüşçü dünənki döyüş haqqında informasiyanı oxuyanda, döyüşün gərginliyini əks etdirən foto-şəkilləri də, döyüşçü yoldaşlarını görəndə necə sevinirdi! "Döyüş də sizin döyüşünüzdü, qəzet də sizin qəzetinizdi. Biz sizin qələbələrinizi sözlə ifadə edənlərik...", - deyirdik. Razılaşmırdılar, "Siz də bizim döyüşçü yoldaşlarımızsınız...", - deyirdilər. Onlar Qələbə üçün döyüşürdülər, biz Qələbə üçün yazırdıq. Mövqe qələbələri qazanıldıqca səyyar qəzet (buna səhra qəzeti də demək mümkündür) döyüşçülərlə daha üstün sevgilər əsasında doğmalaşırdı. Döyüş əmrini yerinə yetirmiş döyüşçülər döyüşlərarası fasilələrdə bizimlə söhbətləşməyə də vaxt tapırdı. Müharibədən əvvəlki illərdə olduğu kimi, yenə Vətəndən danışırdıq, o illərdə arzuladığımız döyüşlərdən danışırdıq, qəhrəmanlıqlardan, qəhrəmanlardan danışırdıq, Böyük Qələbə arzusuyla sağollaşırdıq. Bu sağollaşmanın müddəti bəzən saatlar çəkirdi...

Qələbədən danışa-danışa "Qələbə uğrunda"nın növbəti sayını hazırlayırdıq. Döyüşçülərdən biri soruşmuşdu ki, Qələbədən sonra "Qələbə uğrunda" nəşr olunacaqmı? Döyüşçüyə izah etdik ki, bu qəzet müharibəyə görə nəşr olunur. Müharibədən əvvəlki illərdə olduğu kimi, müharibədən sonra da onun yerinə yetirdiyi missiyanı "Azərbaycan Ordusu" qəzeti yerinə yetirəcək. Döyüşçü "Qələbə uğrunda"ya doğmalıqla baxmışdı, "Bizim qəzetimiz də döyüşür...", - demişdi. Döyüşçü bizim qələmimizə baxmışdı, biz döyüşçünün avtomatına. Bu baxışları bir amal ümumiləşdirirdi: Qələbə, Böyük Qələbəyə inam.

Şuşa işğaldan azad edilən-də Qələbə kəlməsi hamımızın bayrağımıza dönmüşdü. O sevinci ən gözəl sevinc, o qüruru ən gözəl qürur, qəzetimizin bu informasiyanı da əhatələyən sayını qəzetçilik tariximizin ən gözəl günü adlandırardım...

"Qələbə!" sözü, Vətən müharibəsi, "Qələbə uğrunda" mənim ömrümün göyqurşağıdı...

**Mayor**
**Ceyhun CƏFƏRLİ**
**"Azərbaycan Ordusu"**

## Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

Aprelin 1-i saat 22:00-dan 22:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Arazdəyən, Qarakilsə rayonunun Saybalı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad və Şahbuz rayonunun Biçənək yaşayış məntəqələri istiqamətlərindəki mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## ANAMA: Ötən ay 300-ə yaxın piyada əleyhinə mina zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən martda icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 299, tank əleyhinə 114 mina və 1254 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 6094.6 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Aprel zəfəri - Böyük Qələbəyə aparan yol



(Əvvəli 1-ci səhifədə)

Dördgünlük müharibə təkcə ərazilərimizin işğaldan azad olunmasının mübarizəsi deyildi, Azərbaycan əsgəri tərəfindən şəhidlərimizin qisasının alınması, xalqımızın inamının bərpası və Ali Baş Komandanımızın etimadının doğruldulmasının mübarizəsi idi. Aprel döyüşləri Azərbaycan xalqının dövlət, dövlətçilik hissinin sarsılmazlığının, əsgərimizin gücünün qüdrətinin təsdiqi oldu. Qazanılan qələbə Azərbaycan Ordusunun gələcək zəfərlərinin carçısı idi. Düşmənin illərdir "möhkəmləndirdiyi" sədlərin qısa vaxt ərzində yarılması Azərbaycan əsgərinin Vətən sevgisinin, döyüş ruhunun möhkəmliyinin təcəssümü idi. Bu qələbə ilə tarixi ədalət bərpa olundu, rəşadətli ordumuzla düşmənin "ordusu" arasındakı güc, təminat, şəxsi heyətin vətənpərvərlik hissində olan müqayisəolunmaz fərq aşkar hiss edildi. Sarsılan düşmənin gələcək məğlubiyyətləri labüd idi. Və öz məkrli niyyətindən dönməyəcəyi təqdirdə, məğlubiyyətə düçar olacağı günü daha da yaxınlaşdırırdı. Düşmən Aprel döyüşlərində elə sarsıldı ki, qalib ordumuz 2018-ci ilin mayında Günnüt zəfəri, 2020-ci ildə 44 günlük Vətən müharibəsi xalqımıza Böyük Zəfər bəxş etdi. Bununla da separatizmin kökü kəsildi, tarixi ərazilərimizdə dalğalanan üçrəngli bayrağımız bir daha təsdiq etdi ki, bu yerlərin həqiqi sakini Azərbaycan xalqıdır və başqa cür ola da bilməz. Bu gün Azərbaycan xalqı nəinki regionda, dünyada da qalib xalqdır. Çünki yaxın tarixə nəzər salsaq görərik ki, biz hər zaman humanizm dəyərlərinə hörmətlə, ədalət prinsipləri gözlənilməklə analoqu olmayan müharibə aparmağı bacaran dövlət olaraq tarixə düşmüşük. Lakin qarşı tərəf ataşkəs dövründə də, müharibə dövründə də öz məkrli niyyətlərindən heç zaman əl çəkməyib və bunun nəticəsində xeyli mülki həmvətənimiz əziyyət çəkib. Bərpa olunan ərazi bütövlüyümüz, təmin edilən suverenliyimiz bütün şəhidlərimizin qisası, öz doğma yurdlarından didərgin düşən soydaşlarımızın böyük qayıdışı Zəferimizin tacı oldu. Bu gün təkzibolunmaz faktdır ki, xalq-ordu-dövlət birliyimiz sarsılmaz və əbədidir. İşğaldan azad olunan ərazilərimizdə dalğalanan bayrağımız da daimidir. Artıq bütün dünya bu reallığı qəbul edir - Qarabağ Azərbaycandır!



**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

## ƏÜO-da “Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması” mövzusunda taktiki-xüsusi təlim keçirilib





Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) 2024-cü ilin döyüş hazırlığı planına əsasən, "Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması" mövzusunda taktiki-xüsusi təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, şəxsi heyətin şiddətli soyuqlarda döyüş tapşırıqlarını yerinə yetirmə bacarıqlarının və həyatdaqalma vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən taktiki-xüsusi təlimdə xüsusi təyinatlılar müxtəlif fəaliyyətlər icra ediblər.

Taktiki fəaliyyətlər zamanı xüsusi təyinatlılar xəritə üzərində tapşırıqları dəqiqləşdirdikdən sonra gecə qaranlığında şərti düşmənin arxasına sızaraq mövqelərə basqın tapşırığını icra ediblər.

Təlimdə şəxsi heyətin sıldırım qayalıqlara dırmanaraq dağdan iplərlə enməsi, eyni zamanda, ekstremal şəraitdə yaralıların qayalıqlardan təxliyə edilməsi məşq etdirilib.



Xüsusi təyinatlı bölmələr düşmən dərinliyində çətin relyefli şəraitdə, qarlı və meşəlik ərazidə düşmənlə qəfil qarşılaşma, düşməndən uzaqlaşma fəaliyyətlərini yerinə yetiriblər.

Taktiki-xüsusi təlimdə qar uçqununa məruz qalmış və qarlı ərazilərdə itmiş şəxslərin axtarılıb tapılması, onlara ilkin tibbi yardımın göstərilməsi və təxliyəsi həyata keçirilib.

Qarlı-şaxtalı havalarda şəxsi heyətin xizək sürmə vərdişlərinin, hərəkətli və hərəkətsiz vəziyyətdə atəşaçma bacarıqlarının təkmilləşdirildiyi təlimdə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

*Fiziki hazırlıq*

## Əsgərlərimizin fiziki hazırlığı yüksək səviyyədədir




"N" hərbi hissəsində müasir standartlara cavab verən idman şəhərciyində fiziki hazırlıqlarını artıran şəxsi heyət diqqətimizi cəlb etdi. Onlar məşğələ rəhbəri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ehtiram Əmirovun nəzarəti altında idman qurğularında müxtəlif hərəkətlər edərək, güclərinə güc qatırdılar. Cəsur Vətən müdafiəçilərinin verilən bütün tapşırıqları çətinlik çəkmədən və qısa vaxt ərzində icra etməsi onların güclü və çevik olmalarından xəbər verirdi. Məşğələnin gedişatına mane olmamaq üçün gözlədik.

Fiziki hazırlığa ayrılmış vaxt yekunlaşdıqdan sonra çavuş E.Əmirovun fikirlərini qələmə aldım. Onun sözlərinə görə bütün hərbi qulluqçuların döyüş, atəş və mənəvi-psixoloji hazırlıqları ilə yanaşı, fiziki hazırlığı da daim yüksək səviyyədə olmalıdır. "Çünki döyüşdə zəfərin əldə olunmasında fiziki gücün əhəmiyyəti böyükdür. Tam döyüş təchizatı ilə qısa müddət ərzində müəyyən məsafəni dəf etmək və qarşıya qoyulan tapşırığı yerinə yetirmək üçün bu amil mütləqdir. Məhz bu səbəbdən də rəşadətli Azərbaycan Ordusunda fiziki hazırlığa xüsusi önəm verilir. Hərbi hissələrdə müasir standartlara cavab verən idman şəhərcikləri və idman qurğuları ilə təchiz olunmuş idman otaqları yaradılıb. Bunların nəticəsidir ki, hərbçilərimizin fiziki gücləri yüksək səviyyədədir. Şanlı qələbəmizlə yekunlaşan 44 günlük Vətən müharibəsi və ordumuzun həyata keçirdiyi digər döyüş əməliyyatları bunun bariz nümunəsidir. Haqq savaşımızda döyüşçülərimiz yorulmaq bilmədən uzun məsafələri qət edib, düşmən ordusunu darmadağın etdilər. Şəhidlərimizin qisasını alan oğullarımız doğma Qarabağımızı gerçək sahibinə geri qaytardılar. Bununla da bütün dünya rəşadətli Azərbaycan Ordusunun gücünü bir daha gördü".

Masallı rayonundan hərbi xidmətə çağırılan əsgər Elmar Əmirov günün nizam qaydalarına uyğun olaraq gündə iki dəfə fiziki hazırlıqla məşğul olduqlarını dedi. "Peşəkar komandirlərimizin nəzarəti altında keçirilən məşğələ çox səmərəli təşkil olunur. Ayrılan vaxt ərzində müxtəlif alətlərdə idman hərəkətlərini edir, gücümüzü artırırıq. Xidmətin ilkin ərəfəsində gördüyünüz hərəkətləri etməkdə çətinlik çəkirdim. Çox vaxt keçmədən həm əsgər yoldaşlarımın, həm də komandirlərimin köməyi ilə bir çox hərəkətləri edir, istənilən tapşırıqların öhdəsindən asanlıqla gələ bilirəm".

Əsgər Sahil Eyvazlı mülki həyatda da idmanla məşğul olub. Xidmətə başlamazdan əvvəl onu düşündürən məsələlərdən biri də məhz idmanı necə davam etdirəcəyi idi. Lakin hərbi hissədə şəxsi heyət üçün yaradılan şəraiti görəndə sevinmişdi. Çünki o, idmana böyük sevgi bəsləyirdi. Keçirilən fiziki hazırlıq məşğələsi zamanı fəallıq nümayiş etdirir və verilən bütün komandaları sərrast icra edirdi. Məşğələlər zamanı təcrübəli komandirlərindən bir çox yeni idman hərəkətlərini öyrəndi. Həmçinin keçirilən dərs və məşğələlər sayəsində peşəkar əsgər kimi formalaşıb, hərbin bütün sirlərinə dərindən yiyələndi. "Bu gün verilən bütün tapşırıqların öhdəsindən asanlıqla gələ bilirəmsə, bunu məhz komandirlərimə borcluyam. Çünki onlar hər zaman yanımızda olub, bütün qayğı və problemlərimizlə yaxından maraqlanırlar. Hər hansısa sualımız yarandıqda çəkinmədən onlara yaxınlaşırıq. Bizlərə göstərilən bu cür diqqət və qayğıya görə əziyyəti olan komandirlərimizə dərin minnətdarlığımı bildirirəm. Əminliklə söyləyirəm ki, xidmətimin sonunadək Azərbaycan əsgəri adını şərəflə daşıyacaq və lazım gələrsə, torpaqlarımızın müdafiəsi uğrunda istənilən an canımdan keçməyə hazıram".

Hərbi xidmətə Cəlilabad rayonundan çağırılan əsgər Anar Mirzəcanov da düşüncələrini bizimlə bölüşdü. "Bu gün regionun ən güclüsü və qalib ordunun sıralarında xidmət edən əsgər kimi deyə bilərəm ki, hər birimiz bir amal uğrunda xidmət edirik - torpaqlarımızın müdafiəsində mətin dayanmaq. Bunun üçün hər an canımızdan belə keçməyə hazırıq. Üzərimizə düşən bu müqəddəs vəzifəni layiqincə yerinə yetirə bilmək üçün peşəkar komandirlərimizin rəhbərliyi ilə keçirilən bütün dərs və məşğələlərdə fəal iştirak edir, hərbin sirlərinə dərindən yiyələnərək qarşıya qoyulan istənilən tapşırıqları asanlıqla icra edirik. Əlbəttə, istənilən tapşırığı icra edə bilmək üçün ilk öncə fiziki cəhətdən güclü olmaq lazımdır. Məhz bu səbəbdən də günün nizam qaydalarına uyğun olaraq keçirilən fiziki hazırlıq məşğələlərində fəal iştirak edir, hər gün daha da güclənirik".

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Türkiyədə İŞİD-lə əlaqəsi olmaqda şübhəli bilinən 51 nəfər saxlanılıb



Türkiyənin 21 vilayətində İŞİD terror təşkilatına qarşı genişmiqyaslı əməliyyat keçirilib.

Bu barədə Türkiyənin daxili işlər naziri Ali Yerlikaya bildirib.

Məlumata əsasən, "BOZDOĞAN-17" kod adı altında keçirilən əməliyyat zamanı İŞİD-lə əlaqəsi olmaqda şübhəli bilinən 51 nəfər saxlanılıb.

Əməliyyat zamanı terror təşkilatına aid çox sayda sənəd və rəqəmsal material ələ keçirilib.

### Moldovada ABŞ və Rumıniya əsgərlərinin iştirakı ilə hərbi təlimlər keçirilir



Moldovada Rumıniya və ABŞ hərbçilərinin iştirak etdiyi çoxmillətli JCET-2024 hərbi təlimləri başlayıb. Təlimlər aprelin 1-dən 19-dək keçiriləcək.

Bu barədə Moldova Müdafiə Nazirliyinin mətbuat xidməti xəbər verib.

Departament qeyd edib ki, təlimlərin məqsədi Moldova, Rumıniya və ABŞ xüsusi təyinatlıları arasında birgə təlim və təcrübə mübadiləsi, habelə iştirakçı kontingentlərin qarşılıqlı fəaliyyət səviyyəsinin artırılmasıdır.

Bu il tədbirdə Moldova Dövlət Mühafizə və Təhlükəsizlik Xidmətinin və "Pantera" xüsusi təyinatlı dəstəsinin nümayəndələri də iştirak edəcəklər.

Ssenariyə əsasən, hərbçilər paraşütlə tullanma, gündüz və gecə təkmil canlı atəş təlimləri və xüsusi tapşırıqlar üzrə səhra təlimləri həyata keçirəcəklər.

### İndoneziyada silah anbarında partlayış baş verib



İndoneziyanın paytaxtı Cakarta yaxınlığındakı silah anbarında silsilə partlayışlar baş verib.

Bu barədə İndoneziya ordusunun nümayəndəsi Məhəmməd Həsən məlumat verib.

Bildirilir ki, partlayışlar zamanı heç kim zərər çəkməsə də, ehtiyat tədbir olaraq əhali daha təhlükəsiz ərazilərə köçürülüb.

### İsrail “Hizbullah”ın mövqelərinə raket zərbələri endirib



İsrail Hərbi Hava Qüvvələrinin qırıcıları "Hizbullah" şiə qruplaşmasının Livanın cənubundakı Rəşaya-əl-Fuxxar bölgəsindəki mövqelərinə və "Əl-Cəma əl-İslamiyyə" sünni qruplaşmasının Əl-Xəbbariyə kəndi yaxınlığındakı mövqelərə zərbələr endirib.

Al Mayadeen telekanalı xəbər verib ki, "Hizbullah" qruplaşmasının mövqelərinə azı altı raket atılıb. Gecə saatlarında isə İsrail PUA-ları yerli jandarma qərargahının yerləşdiyi "Tell-Nahhas" bölgəsindəki evlərdən birinə hücum edib.

Martın 31-də İsrail Hərbi Hava Qüvvələri Livan ərazisində ümumilikdə 15 hava hücumu həyata keçirib. Zərbələr nəticəsində 12 ev dağılıb, 45 evə isə zərər dəyib. Yəhudi dövlətinin quru qoşunları isə Livanın doqquz kəndini artilleriya atəşinə tutub.

Qeyd edək ki, bölgədə vəziyyətin gərginləşdiyi 2023-cü ilin oktyabrından bəri İsrailin hücumları nəticəsində Livanın cənubunda 73 mülki şəxs və "Hizbullah" qruplaşmasının 300-dən çox döyüşçüsü ölüb.

**AZƏRTAC-ın materialları əsasında**

# Heydər Əliyev adına Hərbi İnstituta 2024/2025-ci tədris ili üçün sənəd qəbulu

**Ümumi məlumat:**

**Tədris dili:** Azərbaycan dili **Təhsil forması:** əyani **Təhsil müddəti:** 5 il

Cari ildə mülki ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, qəbul ilində 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşından 23 yaşınadək kişi cinsli, zabit rütbəsi olmayan hərbi qulluqçular və hərbi vəzifəlilər qəbul edilirlər.

**SƏNƏDLƏRİN QƏBULU:**

Heydər Əliyev adına Hərbi İnstituta qəbul olmaq istəyən namizədlər **1 aprel 2024-cü il tarixindən 30 aprel 2024-cü il** tarixinədək ərizə ilə müraciət etməlidirlər. Ərizəyə aşağıdakı **sənədlər** əlavə olunmalıdır:

1. Abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış
2. Anket forması (yerində doldurulur)
3. Oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə
4. Tam orta, yüksək texniki peşə, orta ixtisas və ya ali təhsil haqqında sənədin surəti (cari ilin məzunları üçün arayış)
5. Doğum haqqında şəhadətnamənin surəti
6. Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış
7. Nikah və uşaqların doğum haqqında şəhadətnamənin surəti (evli və uşaq hlduqda)
8. Ailə tərkibi və yaşayış yeri haqqında arayış
9. Rəngli fotoşəkil (baş geyimsiz, anfas) 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm
10. 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının razılıq ərizələri ölçüdə
11. Tibb üzrə: Elektrokardioqramma, Qanın və Sidiyin ümumi analizi, Qan qrupu və rezus-faktor, Qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara və Hepatit C və hepatit B-yə dair müayinələrin nəticələri, psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar

*Qeyd:* 1. Hərbi İnstitutda **"Təyyarəçilik"** ixtisası üzrə daxil olmaq istəyənlər yuxarıda göstərilmiş sənədlərdən *əlavə olaraq nəcisdə helmintlərin yumurtalarının və lyambliyaların sistlərinin müayinəsinə* dair tibbi sənəd də təqdim etməlidirlər.

2. *Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.*

***HƏRBİ İNSTİTUTA QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR***

**1.** Götürülməmiş intizam cəzası olan (yalnız hərbi qulluqçular), məhkumluğu ödənilməmiş və ya üzərindən götürülməmiş, həmçinin ağır və ya xüsusilə ağır, habelə hərbi xidmət əleyhinə cinayət törətmiş, hərbi təhsil müəssisələrindən xaric edilən, hərbi həkim komissiyası tərəfindən institutda təhsil almağa yararsız hesab olunan və öyrənilmə tədbirləri keçirilən zaman Heydər Əliyev adına Hərbi İnstituta qəbula mane olan digər hallar müəyyən edilən şəxslər Heydər Əliyev adına Hərbi İnstitutda təhsil almaq üçün namizədlər siyahısına ***daxil edilmirlər***.

**2.** Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün **Dövlət İmtahan Mərkəzinə** göndərilir və onlar **Dövlət İmtahan Mərkəzi** tərəfindən keçirilən ***qəbul imtahanı*** verirlər. Qəbul imtahanı ***I ixtisas qrupunun*** fənləri üzrə keçirilir.

***3. Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunur.***

***İMTİYAZLAR***

- *500 (beş yüz) manat məbləğində birdəfəlik ödəmə;*
- *150 (yüz əlli) manat məbləğində aylıq təqaüd;*
- *200 (iki yüz) manat məbləğində ailə üzvlərinə aylıq maddi yardım;*
- *200 (iki yüz) manat məbləğində hesabda yığılan aylıq ödəniş.*
- *Heydər Əliyev adına Hərbi İnstituta qəbul olan kursantlar təhsil müddətində bütün təminat növləri ilə təmin olunurlar.*
- *Heydər Əliyev adına Hərbi İnstitutun məzunlarına hərbi ixtisasla yanaşı, müvafiq mülki ixtisas üzrə bakalavr ali peşə-ixtisas dərəcəsi də verilir.*

***Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasından keçmək üçün tarix və ünvan namizədlərə sənəd qəbulu mərkəzlərində bildiriləcəkdir.***

**Ətraflı məlumat üçün əlaqə nömrəsi:**
***0811 (həftənin iş günləri, saat 09:00-dan 18:00-dək)**
**Web ünvan:** www.mmu.edu.az

# Milli Müdafiə Universiteti tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul elan edir

***Milli Müdafiə Universiteti cari ilin 1-30 aprel tarixlərində tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul elan edir.***

Vətəndaş məmnunluğunun və əlçatanlığın təmin edilməsi məqsədilə **respublikanın 13 şəhərində ümumi olaraq 17 sənəd qəbulu mərkəzi** yaradılıb. Sözügedən təhsil müəssisələrinə qəbul olmaq arzusunda olan vətəndaşlar istənilən sənəd qəbulu mərkəzinə yaxınlaşaraq sənədlərini təqdim edə bilərlər.

**Sənəd qəbulu mərkəzlərinin ünvanları aşağıdakı kimidir:**

**Bakı şəhəri üzrə:**
- Heydər Əliyev adına Hərbi İnstitut (Ünvan: Xətai rayonu, Polad Həşimov küçəsi 9)
- Cəmşid Naxçıvanski adına Hərbi Lisey (Ünvan: Xətai rayonu, Polad Həşimov küçəsi 1)
- Hərbi Tibb Fakültəsi (Ünvan: Nəsimi rayonu, Ceyhun Səlimov küçəsi 3)

**Sumqayıt şəhəri üzrə:**
- Sumqayıt şəhər 3 nömrəli tam orta məktəb (Ünvan: Sumqayıt şəhəri, 2-ci mirkorayon, Heydər Əliyev prospekti 345)
- Abşeron rayonu üzrə təhsil sektorunun inzibati binası (Ünvan: Xırdalan şəhəri, M.Rəsulzadə küçəsi 7)

**Gəncə şəhəri üzrə**:
- Gəncə şəhər İsmət Qayıbov adına 1 saylı tam orta məktəb (Ünvan: Gəncə şəhəri, Nizami rayonu, İsmət Qayıbov küçəsi 2)
- Gəncə şəhəri Samir Vəliyev adına 34 nömrəli tam orta məktəb (Gəncə şəhəri, Kəpəz rayonu, Ü.Hacıbəyov küçəsi 79).

**Lənkəran şəhəri üzrə**:
- Lənkəran şəhər 1 saylı tam orta məktəb (Ünvan: Lənkəran şəhəri, İsgəndər Səmədzadə küçəsi 6)

**Cəlilabad şəhəri üzrə**:
- Cəlilabad rayon üzrə təhsil sektorunun inzibati binası (Ünvan: Cəlilabad şəhəri, Heydər Əliyev prospekti 1)

**Mingəçevir şəhəri üzrə**:
- Mingəçevir şəhər, N.Ahangari adına 13 saylı tam orta məktəb (Ünvan: Mingəçevir şəhəri, Ərəşş küçəsi 4)

**Beyləqan şəhəri üzrə**:
- Beyləqan rayonu üzrə təhsil sektorunun inzibati binası (Ünvan: Beyləqan şəhəri, Heydər Əliyev prospekti 12)

**Bərdə şəhəri üzrə**:
- Qarabağ Regional Təhsil İdarəsinin inzibati binası (Ünvan: Bərdə şəhəri, Heydər Əliyev prospekti 1)

**Qazax şəhəri üzrə**:
- Qazax şəhər, M.Hüseyn adına məktəb-lisey (Ünvan: Qazax şəhəri, Heydər Əliyev prospekti 150)

**Quba şəhəri üzrə**:
- Quba şəhər, Azad Məmmədov adına 2 nömrəli təbiət fənləri təmayüllü məktəb-lisey (Ünvan: Quba şəhəri, Əliqulu Nərimanov küçəsi)

**Qəbələ şəhəri üzrə**:
- Qəbələ rayon üzrə təhsil sektorunun inzibati binası (Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti 40)

**Şirvan şəhəri üzrə**:
- Şirvan şəhəri üzə təhsil sektoru inzibati binası (Ünvan: Şirvan şəhəri, İstiqlaliyyət prospekti 10)

**Naxçıvan MR üzrə**:
- Heydər Əliyev adına Hərbi Lisey (Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 12).

Gizirlər Nadirli Şəmsi Şəmsəddin oğluna məxsus AD № 0034152 nömrəli və Baxşıyev Sadıq Vasif oğluna məxsus SQ № 0026811 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Göyüşov Tural Rafiq oğluna məxsus AD № 0062265 nömrəli, əsgər Abdullayev Tofiq Akif oğluna məxsus AD № 009380 nömrəli, matros Həsənli Cavid Cabbar oğluna məxsus AD № 0034152 nömrəli və əsgər Bəşirov Rəşad Rəşid oğluna məxsus şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini** mayor Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 134
Nüsxə 4650